dəcək səhənglə, yenidən sevəcək, keçmişini yenidən xatırlayacaq anam qızımın varlığında, adında...

*Nə var xatırlasın olub-keçəndən,*
*Soluna boylansın, sağına dönsün.*
*Qırmızı yaylıqlı, qırmızı donlu,*
*Qırmızı başmaqlı çağına dönsün.*
*Amma ölüm bu "anasını" da əlindən alır...*
*Dərdin qatlarından xəbərin yoxdu,*
*Nədi ki, torpağın qatları, qızım.*
*Mənim ürəyimin çatdaqlarıdı*
*Sənin bu qəbrinin çatları, qızım.*
*Tellərin bilirəm, sığallayıram*
*Bu çatlardan qalxan otları, qızım.*
*İndi mən çıxıram, ayaqlayıram*
*O sən ayaqlayan odları, qızım,*
*Səni o dünyanın qurdları yeyir,*
*Məni bu dünyanın qurdları, qızım.*

E.Baxışın bədii təsvir və ifadə vasitələrindən istifadə üsulu onun özündən asılı olmayan bir yazı prosesinin təbii doğuşu kimi çıxır ortaya. Şeirlərindəki quşlar, otlar, ağaclar, yağışlar, göz yaşları, itkilər, xəyanət və sevgilər müəllifinin ürəyindən od, düşüncəsindən məna alır. Fərqli baxış məqamları var məlum hadisələrə. Səmada quş görmüşük həmişə. Amma E.Baxış "Səma var quşun ağzında"-deyir.

*Torpaq var, xışın ağzında,*
*Səma var, quşun ağzında,*
*toxum var, daşın ağzında,*
*çiçək açdı - kürələdi.*

Müharibəni bu rəngləri, bu "naxışları" ilə tanımaq da bir səmimi şair qəlbinin, ruhunun işidir.

*Fələstinin ağrısını-acısını*
*ev-ev,*
*küçə-küçə,*
*dalan-dalan,*
*güllə-güllə,*
*tətik-tətik,*
*gicgah-gicgah,*
*hıçqırıq-hıçqırıq,*
*hönkürtü-hönkürtü,*
*göz yaşı-göz yaşı*
*tanıyıram.*

Şairin qəhrəmanları yalnız doğmaları, tanışları, dostları deyildi. Onun azad, uzaq diyarlara qədər baş alıb gedə bilən ruhu hətta dünyanın yetim qızı Cennini də vəsf edə bilirdi:

*Cenni,*
*əlin, ayağın*
*oda, alova dönə*
*boş-bekar qalacaqsan*
*elə dünyada yenə...*

*...Nə dükançı arvadı,*
*nə də nazir qızısan...*
*köhnə Nyu-Yorkda da*
*yaşamağa razısan.*

*...Gördün ürəyin durmur,*
*yaşın baxmır sözünə,*
*bir küçə aynasında*
*göz vurarsan özünə.*
*Öpərsən lap özünü*
*Azca gülümsəyərək,*
*sonra əl eyləyərsən:*
*- Sabah görüşənədək!*
*Yönünüz bir tərəfə*
*səkidən düşərsiniz,*
*ürəyiniz istəsə*
*sabah görüşərsiniz...*

"Qapımızın ağzında donan sərçə" şeirində sərçədir əsərin qəhrəmanı. Bütün quşlar payızın, qışın soyuq hücumundan, çətinliklərindən qorunmaq üçün yır-yığış edib bu yurddan köçür. Yazda qayıdacaqlar. Poeziyamızda bir məlum "sərçə sədaqəti" anlayışı var. Amma E.Baxış bu -qapısının ağzında donan sərçəyə "səni sevgin bu hala saldı, sən bu yerlərin havasını, butasını, arpasını, adasını, insanını sevdin. Sənə nə gəldisə, sevgindən gəldi. Pis günümün də yiyəsi sərçə, nə sədaqətlisən"- deyir:

*Çəkildilər göyə getdilər,*
*qanadlarını çırpa-çırpa,*
*döyə-döyə getdilər,*
*yazda yığdıqlarını,*
*yayda yığdıqlarını*
*yeyə-yeyə getdilər,*
*getdilər bütün köçəri quşlar.*

*Qısa-qısa,*
*basa-basa yanlarını,*
*doldurdular çinədanlarını,*
*getdilər bütün köçəri quşlar.*

*... Sən niyə getmədin*
*atam sərçə,*
*anam sərçə,*
*qapımızın ağzında donan sərçə?*

Yaradıcılığının əsas mərhələsi ötən əsrin 70-ci illərinə düşdü. İkinci Dünya müharibəsindən sonra doğulmuşdu. Amma müharibənin qalıqlarını, izlərini ruhunda, gözündə-könlündə gəzdirə-gəzdirə yaşayırdı. Bu izlər atasının alnındakı şırımda, Belarusiyada Xatın kəndində külə dönmüş bir evin həyətində, gənc qvardiyaçıların qanlı komsomol biletində, Səməd Vurğunun "Qolsuz qəhrəman" şerində, avtobusda - oturacağın qabaq cərgəsində,əlillərin yerində qalmaqda idi... Amma bu sıralamada daha kədərli bir müharibə detalı şeirləşir- müharibə əlili İsmayılın həmişə təzə qalan bir tay ayaqqabıları...

*Kəndimizdə dava görmüşəm:*
*İsmayıl dayının*
*dizdən aşağı*
*bir qılçası yoxdur...*
*Nə vaxtdır!..*
*İsmayıl dayı həmişə*
*mağazadan*
*bir cüt ayaqqabı alar,*
*birini geyər ayağına,*
*biri taxçada qalar.*
*Neçə il yaşasa İsmayıl dayı*
*Həmişə belə olacaq,*
*ayaqqabısının biri təzə qalacaq...*

Şair intuisiyası güclü olur, adətən. E.Baxış da bəlkə bu günü o zamanlardan görür, hiss edirmiş. Unudulan, yaddan çıxan, haqqında az yazılan, danışılan və bəlkə də heç yazılmayan şairlər sırasında olacağını duyurmuş bəlkə? Ona görə "Ümidim torpağadır"-deyirmiş...

*...Ümidim bircə torpağadı,*
*üstündə gəzdiyim bu torpağa:*
*bu torpaq yoluxacaq məni,*
*yoxlayacaq məni*
*hər şeyi unutsa da,*
*qəbrimi,*
*başdaşımı*
*yadında saxlayacaq mənim.*

Eldar Baxış unudulası şair deyil. Oxunmalı, öyrənilməli, öyrədilməli, kitabları çap olunmalı şairlərimizdəndir...

Nə yaxşı ki, sözə dəyər verən insanlar, sədaqətli dostlar var bu dəyərlərin get-gedə yoxa çıxmağa başladığı bir zamanda. Və şair İlham Qəhrəman var... Onun itib-batan şeirlərini bəlkə də bənd-bənd, misra-misra toplayıb kitabını çapa hazırlayır... Deməli, ümid təkcə torpağa deyilmiş...

*30.04.2017*

**Ədəbiyyat qəzeti.- 2017.- 6 may.- S. 27.**